**UOT 82-93**
https://doi.org/10.59849/2218-4783.2026.2.213

# GÖRKƏMLİ ALİMİN DƏYƏRLİ XATİRƏLƏRİ

# THE VALUABLE MEMORIES OF A DISTINGUISHED SCHOLAR

**İnci ƏHMƏDOVA***

**XÜLASƏ**

Akademik Məmməd Cəfər Cəfərovun (1909-1992) Azərbaycan ədəbiyyatında xatirə janrının inkişafında müəyyən xidmətləri olmuşdur. 2010-cu ildə çap olunan "Xatirələr"i iki hissədən ibarətdir: Birinci hissə onun həyatının Naxçıvan mərhələsini əhatə edir. Bu hissə müəllifin uşaqlıq və gənclik illərini, ailə mühitini, sosial və mədəni ənənələri əks etdirir. Burada oxucuya bölgənin gündəlik həyatı, təhsil sistemi, ailə münasibətləri və yerli adət-ənənələri haqqında geniş və ətraflı məlumat verilir. Həyatının Bakı mərhələsini əhatə edən hissədə isə müəllifin yetkinlik dövrü, təhsili, ictimai, ədəbi fəaliyyəti və şəhərin sosial-iqtisadi, mədəni mühiti haqqında bəhs olunur. Bu hissə oxucuya Bakının inkişafı, mədəni həyatı və fərqli sosial qrupların gündəlik həyatı haqqında məlumat verir.

Məqalənin məqsədi Məmməd Cəfər Cəfərovun xatirələrində həyatının Naxçıvan və Bakı mərhələlərinin səciyyəvi xüsusiyyətlərini araşdırmaq, onların ədəbi və tarixi əhəmiyyətini dəyərləndirməkdir.

Beləliklə, o qənaətə gəlmək olar ki, Məmməd Cəfər Cəfərovun "Xatirələr"i həm fərdi həyat yolunun, həm də dövrün sosial-mədəni reallıqlarının əks olunduğu mühüm ədəbi-tarixi mənbədir.

**Açar sözlər:** *Məmməd Cəfər Cəfərov, xatirə ədəbiyyatı, Bakı mühiti, Naxçıvan mühiti, ədəbi-mədəni mühit.*

**ABSTRACT**

Academician Mammad Jafar Jafarov (1909-1992) made certain contributions to the development of the memoir genre in Azerbaijani literature. The "Memoirs," published in 2010, consist of two parts: the first covers the Nakhchivan stage of his life. This section reflects the author's childhood and youth years, family environment, and social and cultural traditions. It provides the reader with extensive information about the region's daily life, educational system, family relations, and local customs and traditions.

The second part, covering the Baku stage of his life, discusses his adulthood, education, public and literary activities, and the city's socio-economic and cultural environment. This section provides information about Baku's development, cultural life, and the daily life of different social groups.

The purpose of the article is to examine the characteristic features of the Nakhchivan and Baku stages of Mammad Jafar Jafarov's life in his memoirs and to evaluate their literary and historical significance.

Thus, it can be concluded that Mammad Jafar Jafarov's "Memoirs" is an important literary and historical source reflecting both an individual life path and the socio-cultural realities of the period.

**Key words:** *Mammad Jafar Jafarov, memoir literature, Baku environment, Nakhchivan environment, literary-cultural milieu.*

## GİRİŞ

Məmməd Cəfər Zeynalabdin oğlu Cəfərov 1909-cu ildə Naxçıvan şəhərində dərzi ailəsində anadan olmuşdur. İlk təhsilini Naxçıvanda aldıqdan sonra 1928-1932-ci illərdə Naxçıvan Pedaqoji İnstitutunda təhsil almışdır. Daha sonra 1932-1935-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetində daxil olmuş və 1935-1938-ci illərdə həmin universitetin Ərəb ədəbiyyatı kafedrasının aspirantı olmuşdur. Azərbaycan Pedaqoji İnstitutu, Bakı İkiillik Müəllimlər İnstitutu, Quba Müəllimlər İnsti-

*AMEA Naxçıvan Bölməsi, e-mail: ahmedovainci368@gmail.com
ORCID: 0009-0000-4821-4268

tutu və Bakı Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Həmçinin Azərbaycan Elmlər Akademiyası Nizami adına Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri və direktor vəzifələrində fəaliyyət göstərmişdir. Azərbaycan Elmlər Akademiyası, Dil və İncəsənət Bölməsinin ictimai elmlər bölməsinin akademik-katibi və Azərbaycan Elmlər Akademiyası Əlyazmalar İnstitutunun baş elmi işçisi vəzifələrində çalışıb.

M.C.Cəfərovun xatirələri 2010-cu ildə kitab halında çap olunmuşdur. Kitabı tərtib edən və ön söz müəllifi İsa Həbibbəyli, sözardının müəllifi Ulduz Haşımova, redaktoru isə Hikmət Mehdiyev olmuşdur.

“Xatirələr”də Əməkdar elm xadimi, akademik M.C.Cəfərovun həyatının 30 illik bir dövrü əhatə olunur. Kitab elmiliklə bədiiliyin vəhdəti əsasında yazılsa da daha çox bədii əsər təəssüratı yaradır.

Kitab akademik İsa Həbibbəylinin “Həyatın dibindən böyük üfüqlərə” adlı ön sözü ilə başlayır. Ön sözü oxuyarkən məlum olur ki, M.C.Cəfərovun xatirələrinin yazılması haqda onun sağlığında Abbas Zamanov, Əziz Mirəhmədov, Yaşar Qarayev, Təhmasib Fərzəliyev və Ulduz Haşimov kimi bir sıra şəxslərin məlumatı var imiş. Lakin onun sağlığında xatirələri çap etdirmək kimi bir arzusu olmamışdır. Bunu isə akademik İsa Həbibbəyli ilə birbaşa söhbətindən anlamaq mümkündür:

“Mən söhbəti yenə də “Xatirələr”in üstünə gətirdim: – Nə üçün çap etdirmədiniz?

– Ulduza da demişəm, özünüz baxarsınız.

Başa düşdüm ki, “Xatirələr”i indi çap etdirmək fikri yoxdur. Bu sözlərdə vəsiyyət notları var idi” [Cəfərov, 2010: 6].

“Xatirələr” kitabı M.C.Cəfərovun yaşadığı ərazilərlə əlaqəli olaraq iki əsas hissəyə uyğun qələmə alınmışdır: Naxçıvan və Bakı dövrləri.

**MƏMMƏD CƏFƏR CƏFƏROVUN HƏYATININ NAXÇIVAN MƏRHƏLƏSİ**

Birinci hissə “Naxçıvan xatirələri, Naxçıvan XX əsrin əvvəllərində” başlığı altında qələmə alınmış və keçmiş dövrün Naxçıvanı haqda geniş məlumatlar verilmişdir. “Xatirələrdən Naxçıvanın elmi, ədəbi və mədəni mühitində baş verən əlamətdar hadisələr, keçirilən tədbirlər, ayrı-ayrı mədəniyyət xadimlərinin özünəməxsus xidmətləri haqqında maraqlı məlumatlar almaq olar” [Xəlilov, 2024: 83].

Akademik xatirələrində vaxtı ilə “Nəqşi-cahan” adlandırılmış Naxçıvanın əzəmətli keçmişindən çox az sayda tarixi abidələrin qalmasını vurğulamaqla yanaşı, Şahab, Pirqəmiş, Əlixanlı, Zaviyə, Sarvanlar, Gömayıl, Xoşulu, Atobba, Qurdlar və Qala kimi sakini çox olan məhəllələrin adını çəkmişdir. Məhəllələrdə yaşayan əhalinin hansı işlərlə məşğul olduğuna dair qeydləri sübut edir ki, əhalinin böyük bir qismi əkinçilik, bağçılıq, bostançılıq və maldarlıqla məşğul olurmuş. Burada yalnız bir neçə tacir, mülkədar, xan və şeyxlər firavan yaşamışdır. Xatirələrində toy mərasimlərinə yer verən müəllif, XX əsrin əvvəllərində Naxçıvanda keçirilən bu mərasimlər haqqında geniş məlumat vermiş, “duvaq qapma” və digər adət-ənənələri təsvir etmişdir.

Bununla yanaşı, xatirələrdə “Adlar” və “Dini mərasimlər” başlığı altında geniş məlumat verən müəllif o dövr Naxçıvanında əhalinin böyük əksəriyyətinin islam dininə sitayiş etdiyini açıq şəkildə qələmə almışdır. Bunun ən bariz nümunəsi əhali arasında yeni doğulmuş körpələrə verilən adların böyük bir qisminin dini adlar olan Allahqulu, Tarverdi, Xudaverdi, İmaməli, İmamqulu, Həsənəli və başqalarının olmasıdır.

Xatirələrdə müəllifin ailə üzvləri və qonşularından bəhs etdiyi səhifələr əhalinin maddi və psixoloji vəziyyəti haqqında oxucularda müəyyən təsəvvür yaradır. Erkən yaşda ata, anasını itirən balaca Cəfərin kiçik bacısının da vəfat etməsi və böyük bacısının erkən yaşda evləndirilməsi ona özünü tənha hiss etdirib, depressiyaya salır. Məhz bu dövrdə kitablar onun ən yaxın dostları olur. Qorkinin romantik hekayə, povest və dramları ona çox təsir göstərir və xəyallarını Bakıda gerçəkləşdirmə ümidi yaradır. Bu ilk gedişdə uğur qazana bilməsə də, onun ürəyindəki oxuyub, təhsil alma eşqi sönmür. İlk olaraq Naxçıvanda Pedaqoji Texnikumda təhsil almağa başlayır. Bu dövr üçün texnikumların

vəziyyətinin əlverişli olmadığını "Xatirələr" kitabında da aydın hiss etmək olur. "Müəllimlər (xüsusən tarix, ictimaiyyət və ədəbiyyat müəllimləri) tez-tez dəyişirdi. Texnikumda laboratoriyalar çox ibtidai, kitabxana çox kasıb olduğundan müəllimlərin səyinə baxmayaraq, dərslər bir o qədər də səmərəli keçmirdi. Tələbələrin müstəqil çalışması üçün lazımi şərait yox idi" [Cəfərov, 2010: 177].

Təhsildə istedadı ilə fərqləndiyi üçün texnikumu bitirməmiş pedaqoji şuranın qərarı ilə Bakıya göndərilən M.C.Cəfərov Ali Pedaqoji İnstitutunun Dil və Ədəbiyyat fakültəsində oxumaq haqqı qazanır. Bununla da ədibin kəşməkəşli və özünün də həyatı boyu həssaslıqla xatırladığı, çətin sınaqlarla dolu Naxçıvan dövrü başa çatdırılır.

**MƏMMƏD CƏFƏR CƏFƏROVUN HƏYATININ BAKI MƏRHƏLƏSİ**

"Xatirələr"in ikinci hissəsi müəllifin Bakıda yaşadığı dövrü əhatə edir. 1932-1935-ci illərdə Ali Pedaqoji İnstitutda təhsil alan M.C.Cəfərov xatirələrində "İnstitut müəllimlərim haqqında" başlığı altında bir çoxu öz həmyaşıdı olan istedadlı müəllimlərindən söhbət açmışdır. Ədəbiyyatşünas Vaqif Yüsiflinin M.C.Cəfərov haqqında yazılarında da ona dərs deyən müəllimlərin adını çəkmişdir: "Təfsilata varmaq istəmirəm, sadəcə, Məmməd Cəfər Cəfərova dərs deyən müəllimlərin adını çəkim: Azərbaycan ədəbiyyatından (Füzulidən Vaqifə qədər) professor Bəkir Çobanzadə, gənc Həmid Araslı, təcrübəli müəllim Feyzulla Qasımzadə, rus ədəbiyyatı tarixindən gənc Mikayıl Rəfili, cavan tənqidçi Məmməd Arif, Qərb ədəbiyyatı tarixindən Əli Sultanlı, sonra Hacıbaba Nəzərli, sonra Hənəfi Zeynallı, fəlsəfə tarixindən Seyfulla Şamilov, ədəbiyyatşünaslıqdan Əli Nazim" [Həbibbəyli & Yusifli, 2019: 31]. Müəllimlərindən aldığı dərslər Məmməd Cəfər Cəfərovun ideya-mənəvi təkamülündə əvəzsiz rol oynamışdır.

Bütün bunlarla yanaşı, Ali Pedaqoji İnstitutda çatışmayan cəhətlər də vardı. Bunu əsas səbəbi kimi tez-tez dəyişən yeni dərs metodları olduğunu qələmə alan müəllif, bir neçə metodun adını çəkmişdir. Bunlardan biri "Daltonplan" metodu idi. Bu metodun tətbiqində müəllim əvvəlcədən tələbələrə bir neçə günlük mənbə göstərməli, sonra dərs saatlarında sinifdə oturmalı, tələbələr isə sinfə gətirdikləri kitabları, mənbələri oxumalı idi. Lazım gəldikdə isə müəllimə yaxınlaşıb dərslə bağlı sual verə bilərdilər. Bu metod istənilən nəticəni vermədi, çünki tələbələr lazımi mənbələri tapa bilmirdilər. "Dalton metodu" ləğv edildikdən sonra yaranan metod "laboratuar-briqada" metodu idi. Bu metodda tələbələr on nəfərlik briqadalara bölünürdü və tələbələrdən biri briqadir seçilirdi. Gündəlik dərs saatları ləğv olunmuşdu və müəllimlər öz fənni üzrə həftəlik və yaxud on günlük tapşırıqlar verirdilər. Bu metodun da uğursuz olmasının əsas səbəbi müəllimlər və tələbələrin zamanla özbaşınalıq etməsi oldu. Bütün bunlar haqqında "Xatirələr" əsərindən ətraflı məlumat almaq mümkündür.

Əsərdən o da aydın olur ki, Ali Pedaqoji İnstitutda Hacıbaba Nəzərlinin elmi rəhbərliyi ilə "Volterin bədii yaradıcılığı" mövzusunda yazdığı elmi-tədqiqat işi ədəbiyyatşünas, publisist Əli Nazimin rəyi əsasında yüksək qiymətləndirilmişdir. O, həmçinin 1935-ci ildə aspirant olmaqla yanaşı müəllimlik fəaliyyətinə də başlamışdır. Müəllim kimi fəaliyyət göstərdiyi dövrlərdə tələbələr və həmkarları tərəfindən sevilən M.C.Cəfərov haqqında akademik Bəkir Nəbiyev yazırdı: "M.Cəfər vaxtilə dərs demiş olduğu bütün tələbələrin, bu və ya digər dərəcədə ünsiyyətdə olduğu bütün həmkarlarının sevimlisi idi. Onun məruzə və çıxışlarını, məhdud dairədə dinləmək, onunla səfərlərdə olmaq, məclislərdə iştirak etmək hər birimiz üçün xoş və arzuedilən məqamlar idi" [Həbibbəyli, 2009: 7].

Məmməd Cəfər Cəfərovun 1945-1949-cu illərdə "Ədəbiyyat qəzeti"nin baş redaktoru kimi fəaliyyəti onun həyat yolunda və dünyagörüşünün formalaşmasında xüsusi yer tutmuşdur. Bu mətbuat orqanındakı fəaliyyəti onun gələcək elmi yaradıcılığının əsasının qoyulmasında mühüm rol oynamışdır. Məhz həmin dövrdə o, zamanın görkəmli yazıçı, şair və tənqidçiləri ilə yaxından ünsiyyət qurmuş, elmi və publisistik yazıları, eləcə də hekayələri ilə tanınmağa başlamışdır. M.C.Cəfərov "Ədəbiyyat qəzeti"nin onun formalaşmasında oynadığı rolu yüksək qiymətləndirərək etiraf edirdi ki, ali məktəblə yanaşı, bu qəzet onun üçün ayrıca bir məktəb olmuşdur.

Məmməd Cəfər Cəfərov fəaliyyəti çoxşaxəli olsa da məşğuliyyətində elm həmişə ön mövqedə dayanmışdır. Ömrünün qırx ildən çoxunu Azərbaycan Milli Elmlər Akademiyasında müxtəlif vəzifələr daşıyaraq elmin inkişafına xidmət etmişdir.

## NƏTİCƏ

Naxçıvan və Bakı mühitlərinin müqayisəli təhlili göstərir ki, bu iki məkan Məmməd Cəfər Cəfərovun şəxsiyyətinin və dünyagörüşünün formalaşmasında fərqli, lakin bir-birini tamamlayan funksiyalar daşımışdır. Naxçıvan mühiti onun milli-mənəvi dəyərlərini, ailə bağlılığını, səbir və dözümlülük keyfiyyətlərini formalaşdırmışdırsa, Bakı mühiti isə elmi düşüncə və ictimai fəallıq baxımından həlledici rol oynamışdır. Naxçıvanda qapalı, ənənəvi, dini-əxlaqi mühit üstünlük təşkil etdiyi halda, Bakıda açıq, çoxsəsliliklə zəngin, ideya və fikir mübadiləsinə əsaslanan mühit mövcud idi. Hər iki mühit Cəfərovun həm milli köklərə bağlı, həm də müasir elmi düşüncəyə açıq bir şəxsiyyət kimi formalaşmasına zəmin yaratmışdır. Beləliklə, Naxçıvan onun mənəvi təməli, Bakı isə elmi-intellektual yüksəliş mərhələsi kimi çıxış etmişdir.

Məmməd Cəfər Cəfərovun xatirələrinin təhlili göstərir ki, bu əsər təkcə bir alimin şəxsi həyat salnaməsi deyil, eyni zamanda XX əsr Azərbaycan cəmiyyətinin sosial, mədəni və intellektual mənzərəsini əks etdirən mühüm tarixi mənbədir. Müəllifin uşaqlıq və gənclik illərinə aid müşahidələri dövrün məişət həyatını, ailə münasibətlərini, təhsil səviyyəsini və sosial problemlərini aydın şəkildə ortaya qoyur.

Xatirələrdə verilən faktlar sübut edir ki, M.C Cəfərovun formalaşması təsadüfi deyil, ardıcıl sosial və mədəni təsirlərin nəticəsidir. Onun oxumağa, elmə və ədəbiyyata yönəlməsi şəxsi istedadla yanaşı, yaşadığı mühitlərin yaratdığı zərurətdən doğmuşdur. Bu baxımdan “Xatirələr” əsəri tədqiqatçılar üçün həm ədəbi mənbə, həm də sosial-tarixi sənəd kimi xüsusi əhəmiyyət daşıyır.

Beləliklə, Məmməd Cəfər Cəfərovun xatirələri Azərbaycan xatirə ədəbiyyatının inkişafında mühüm mərhələ olmaqla yanaşı, milli intellektual düşüncənin formalaşma tarixini öyrənmək üçün də dəyərli material təqdim edir.

## ƏDƏBİYYAT

Həbibbəyli İ. (2009). *Akademik Məmməd Cəfər Cəfərov: taleyi və sənəti*. Elm və təhsil.

Həbibbəyli İ., Yusifli V. (Red.). (2019). *Akademik Məmməd Cəfər Cəfərov: şəxsiyyət və yaradıcılığı*. Elm və təhsil.

Cəfərov, M.C. *Xatirələr*. (2010). Çaşıoğlu.

Xəlilov, F. (2024). *Naxçıvan elmi, ədəbi və mədəni mühiti: tədqiqlər* (4-cü kitab). Əcəmi.

*(Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 15.05.2026**
**Son variant 25.05.2026**